# Azərbaycan tarixinə yazılmış yeni şanlı səhifə



**Ərazi bütövlüyünün bərpası məsələsi torpaqları işğala məruz qalmış dövlətlər üçün tarix boyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi dövləti qaliblər sırasına çıxarıb, onun xalqını daha məğrur edib. Belə bir qürur doğuran taleyi indi Azərbaycan yaşayır. Ermənistan tərəfindən işğala son qoyaraq ərazi bütövlüyünü təmin edən xalqımız son 200 illik tarixinin ən şərəfli səhifələrini yazır.**

44 gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya, təslim olmağa məcbur edildi, ölkəmizin ərazi bütövlüyü tam təmin olundu. Azərbaycan müharibənin əvvəlcədən sülhə məcburetmə əməliyyatı olduğunu, qan tökmək və torpaq qəsb etmək məqsədi güdmədiyini bildirirdi. Məğlubiyyət bəyanatının Ermənistan tərəfindən imzalanması isə sülhə məcburetmə əməliyyatının uğurla bitməsinin təsdiqi oldu. "Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut etdi. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıtsın", - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi böyük Qələbənin sevincini yaşayır. Müzəffər İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq torpaqlarımızı azad etməsi dövlətçilik tariximizi qürurlandırdı, hər birimizə intizarında olduğumuz qələbənin sevincini yaşatdı. Eyni zamanda haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, daha da mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Bu gün böyükdən kiçiyə qədər hər kəs hər bir azərbaycanlı vəzifəsindən, əqidəsindən, sosial statusundan asılı olmayaraq özünü daha vüqarlı, daha mətin hiss edir. Çünki artıq biz qalib bir xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edirik, öyünürük, qürurlanırıq.

44 gündə Azərbaycan Ordusu özünün möhtəşəm qələbələri ilə dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı. Bu savaş təsdiqlədi ki, işğal siyasətinin qurbanı olan Ermənistan 30 il əvvəl necə idisə, elə də qalıb və inkişaf baxımından bir addım belə addımlaya bilməyib. Bütün dünya gördü ki, Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi ilk gündən dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi.

44 gündə Ermənistanın ardıcıl təxribatlarını dayandırmaq üçün Azərbaycanın həyata keçirdiyi əks-hücum həmlələrindən narahat olan düşmən bu prosesi dayandırmağa çalışdı. Lakin Azərbaycanı öz yolundan döndərə bilmədi və ordumuz Qarabağın incisi Şuşaya qədər gedib işğalda olan torpaqlarımızı azad edərək öz vəzifəsini yerinə yetirdi. Rəşadətli ordumuz qədim yurd yerimiz, mənəvi paytaxtımız Şuşanı azad etməklə Ermənistanın işğalçı siyasətini darmadağın etdi. Həmin günlərdə Prezident İlham Əliyev bütün siyasi təzyiqlərin qarşısını aldı, dünya erməniliyinin ölkəmizə qarşı diplomatik cəbhə yaratmasına imkan vermədi. Ali Baş Komandan, Prezident İlham Əliyev bu qələbə ilə bütün dünyaya sübut etdi ki, güclü Azərbaycanın qarşısında Ermənistan heç vaxt dura bilməz. Eyni zamanda heç bir qüvvə Azərbaycanın iradəsinə təsir göstərə bilməz.

Azərbaycanın işğal olunmuş ərazilərini güc yolu ilə azad etməsi Dağlıq Qarabağ problemi ətrafında da tamamilə yeni reallıq formalaşdırıb. Bu reallıq ondan ibarətdir ki, Azərbaycan ərazi bütövlüyünü təmin etdi və Ermənistanın Dağlıq Qarabağın statusu ilə bağlı bütün planlarının üstündən xətt çəkildi. Bütün dünya gördü ki, separatçı rejimlərə və işğal siyasətinə necə son qoyulur və beləliklə, 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi.

Bir mühüm məsələni də qeyd edək ki, xalqımızın bu qələbəsi ilə həm də Naxçıvan blokadadan azad olunur. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Belə ki, Azərbaycanın əsas hissəsinin qısa yolla Naxçıvanla əlaqəsi yaradılacaq, bu da respublikamızın Qələbə nəticəsində düşməni Azərbaycanla razılaşmasına məcbur etməsinin mühüm nəticəsidir.

Müharibə başlayandan dünya Ali Baş Komandanımız İlham Əliyevin qəti iradəsinin, məntiqli çıxışlarının, ordumuzun gücünün, xalqımızın milli birliyinin və vətəndaş həmrəyliyinin şahidi oldu. Ordumuz döyüş meydanında, xalqımız isə arxa cəbhədə böyük məsuliyyətlə əsl vətəndaş həmrəyliyi, birlik, güc göstərdi. Bütöv Azərbaycan naminə Qarabağın işğaldan azad edilməsi məqsədinə nail olmaq üçün hər bir Azərbaycan vətəndaşının vətənin müdafiəsinə qalxmağı, Qarabağa aparan yolda bütöv hərəkatın tərkib hissəsi olmağını görmək çox qürurvericidir.

Çoxdandır gözlədiyimiz Azərbaycanın ərazi bütövlüyünü görmək bizlərə nəsib oldu. Ulu öndər Heydər Əliyevin də dediyi kimi; Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq!- O günəş 10 noyabr 2020-ci ildə doğdu!

Orduya dəstək üçün vətəndaşlıq borcunu yerinə yetirmək məqsədilə xalqımız mənəviyyatı üstün tutaraq könüllü dəstək göstərir, əsgərlərin ehtiyaclarını ödəmək üçün yardımlar edirdi. Ölkəmizdə fəaliyyət göstərən şirkətlər də Azərbaycanın Silahlı Qüvvələrimizin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi üzrə formalaşan Yardım Fonduna ianələr etməklə ordumuza və dövlətimizə dəstək kampaniyasını həyata keçirirlər.

Rəhbərlik etdiyim "My Broker" şirkəti də, şəxsimdə öz növbəsində "qələbəyə gedən yol arxa cəbhədən keçir" sözlərini özümüzə şüar edib, mənəvi və vətəndaşlıq borcumuzu yerinə yetirərək, ərazilərimizin bütövlüyü uğrunda düşmənə qarşı aparılan uğurlu hərbi əməliyyatlara töhfə, ordumuza, əsgərlərimizə kömək məqsədi ilə rəhbərlik etdiyim şirkətə məxsus, yolsuzluq şəraitinə uyğun olan avtomobili tərəfimizdən hərbi təyinatlı göstəricilərə uyğunlaşdıraraq ordumuza, ön cəbhəyə təhvil verdik.

Müharibə başlayan gündən üç istiqamətdə ön cəbhələrdə olmuşam. Baxmayaraq ki, bu səngərlərə mülki vətəndaşlar buraxılmır, amma bizə şərait yaradıldı ki, ön cəbhədə əsgərlərimiz ilə görüşək, bacardıqca dəstəyimizlə onları bir az da ruhlandıraq, arxa cəbhədə bizlər də yanlarında olduğumuzu bildirək. Mütəmadi olaraq tərəfimizdən təşkilatçılıq edilərək ön cəbhədə əsgərlərimizi daha da ruhlandırmaq məqsədi ilə onların zəruri ehtiyaclarını öyrənib, bu bölgələrə göndərərək dəstək olmağa çalışdıq. Ordumuzun gücünün, əsgərlərimizin döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olmasının hər səfərimdə şahidi olurdum. İgidlərimiz qəhrəmanlıq göstərərək torpaqlarımızı işğaldan azad edib, müdafiə edirdilər. Bu görüşlər mənim xatirəmdə silinməz iz buraxmışdır.

Şirkətimiz Türkiyə Cümhuriyyətinin Qızıl Aypara Cəmiyyəti tərəfindən Azərbaycana göndərdikləri humanitar yardımının gömrük rəsmiləşdirilməsi əməliyyatlarını öz öhdəsinə götürərək tam təmənnasız olaraq həyata keçirmişdir. Ölkəmizin bu şanlı savaşında Milli Ordu sıralarına qoşulan şirkətimizin əməkdaşlarının da yanlarında olduğumuzu ailələrinə bildirərək, əməkhaqlarının iki misli qədər hesablanacağı bildirilmişdir. Yaxın gələcəkdə də işğaldan azad olunan ərazilərimizin yenidən quruculuğunda aidiyyəti üzrə idxal olunan mallara güzəştli şərtlər ilə gömrükləmə xidməti, beynəlxalq daşınma və yeni layihəmiz azad olunan ərazilərimizdə ölkə daxili yük daşımalar üzrə yeni şöbəmizi yaratmağı qarşımıza öhdəlik qoymuşuq.

44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. Haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq. Prezident İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı ucaltdı və bəyan etdi ki, bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu yaşamışıq, bizim xalqımız yaşayıb. Bundan sonra da hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Tək döyüş meydanında deyil, arxa cəbhədə Ali Baş Komandanımızın, ətrafında daha sıx birləşmək və bir yumruq kimi olmağa davam etməliyik. Bizlərə yaşatdıqları 30 illik Qarabağ həsrətinə son qoyulması, zəfər, sevinc, qürur, fəxarət hissləri üçün Ali Baş Komandanımız İlham Əliyevə, ordumuzun hər bir əsgər və zabitinə bir daha təşəkkür edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik.

Tarixdən bəllidir ki, müharibə dövründə böyük ordu birləşmələrinə komandanlıq etmiş, vətəni, torpağı düşmən işğalından azad edən sərkərdələrə, dövlət başçılarına, liderlərə milli qəhrəman, generalissimus fəxri rütbəsi verilir. Cənab Ali Baş Komandanımız da bu fəxri adlara layiqdir.

**Rəşad ƏLİYEV,**
**"My Broker" şirkətinin təsisçisi.**